# "Şuşa şəhərinə giriş-çıxışa heç bir məhdudiyyət qoyulmayıb"

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi Şuşa şəhərinə giriş-çıxışa, guya, məhdudiyyət qoyulması ilə bağlı yayılan əsassız məlumatlara münasibət bildirib.

Bununla bağlı nümayəndəlikdən AZƏRTAC-a daxil olan məlumatda qeyd olunub: "Bu gün bir sıra yerli KİV orqanlarında 31 dekabr-2 yanvar tarixləri arasında Şuşa şəhərinə giriş-çıxışa məhdudiyyətlərin qoyulması ilə bağlı həqiqətə uyğun olmayan məlumatlar yer alıb. Bildiririk ki, Şuşa şəhərinə giriş-çıxış hər zaman olduğu kimi müvafiq prosedur qaydalarına uyğun olaraq həyata keçirilir və heç bir məhdudiyyət qoyulmayıb".

Azərbaycan.- 2023.- 21 dekabr, № 279.- S.4.